7 yanvar / 2021

# Albaniya Prezidenti Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən danışdı

"Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təkcə məşhur Azərbaycan şairinin yaradıcılığının deyil, həm də nəcib dəyərlərin, tolerantlığın, multikulturalizmin, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təbliği üçün mühüm plaformadır".

Bunu "Trend"ə Albaniyanın Prezidenti İlir Meta deyib.

O bildirib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi fəaliyyəti müddətində ümumi problemlərin müzakirəsi, dəyərləndirilməsi və həll yollarının müəyyənləşdirilməsi üçün əsl qlobal platformaya çevrilib: "Burada inklüziv cəmiyyətin qurulması prosesində qarşılaşacağımız problemlər, eləcə də



yeni xarici siyasətin tələbləri, o cümlədən, COVİD-19 pandemiyası ilə səmərəli mübarizə məsələləri müzakirə olunur. Bunlar yalnız müzakirə olunan məsələlərin bir neçəsidir. Mərkəzin keçirdiyi hər debatda dəqiq ismarıc səsləndirilir: yalnız birgə, dialoq və əməkdaşlıq vasitəsilə biz bu problemlərin düzgün və dayanıqlı həllinə nail ola bilərik".

İ.Meta əlavə edib ki, Mərkəz özünün uğurlu fəaliyyətini Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörənliyinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının həmsədri İsmail Serageldinin rəhbərliyinə, baş katib Rövşən Muradovun düşünülmüş və gərgin işinə borcludur.